# Respublika Veteranlar Təşkilatının VIII plenumu olub





Dekabrın 11-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının VIII plenumu keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət nümayəndələri, veteranlar, şəhər və rayon veteran təşkilatlarının sədrləri iştirak ediblər.

Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov plenumu açaraq tədbirin gündəliyi barədə məlumat verib. Bildirib ki, tədbirdə təşkilatın builki fəaliyyətinin yekunları, 2019-cu il üçün tədbirlər planı və cari məsələlər müzakirə olunacaq.

Gündəlik təsdiqləndikdən sonra Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov qurumun cari ildəki fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi ilə çıxış edib.

Hesabat dövründə təşkilatın Rəyasət Heyətinin iclaslarında veteranların sosial müdafiəsi məsələsi müzakirə olunub, onlara kömək göstərilib.

Plenumda çıxış edən Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev bildirib ki, Respublika Veteranlar Təşkilatı ölkəmizin ictimai-siyasi həyatında fəallığı və səmərəli fəaliyyəti ilə seçilir, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti hərtərəfli dəstəkləyirlər.

Bu ilin ölkə həyatında bir çox mühüm hadisələrlə zəngin olduğunu vurğulayan Ə.Mehdiyev veteranlarımızın bu tədbirlərdə yüksək fəallıq nümayiş etdirdiklərini diqqətə çatdırıb. Veteranların böyük döyüş və mənalı həyat yolu keçərək zəngin təcrübə qazandıqlarını qeyd edən şöbə müdirinin müavini bildirib ki, buna görə də onlara cəmiyyətin ağsaqqalı, müdrik sözü, qəti və aydın mövqeyi olan insanlar kimi hörmət və ehtiram göstərilir. Bu baxımdan veteranların ictimai-siyasi proseslərdə rolu çox böyükdür. Onlar həmişə cəmiyyətdə öndə gedərək aydın şəkildə qəti vətəndaşlıq mövqeyi nümayiş etdirirlər. Azərbaycan dövləti də həmişə veteranlara yüksək diqqət və qayğı göstərir. Dövlət siyasətinin prioritet istiqamətlərindən biri veteranların qayğı ilə əhatə olunması, onların fəaliyyətinin təmin edilməsi üçün lazımi tədbirlərin görülməsidir. Bu gün Respublika Veteranlar Təşkilatının fəaliyyəti üçün yaradılan şərait bütün bunları aydın şəkildə sübut edir.

Bu il ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileylərinin yüksək səviyyədə qeyd olunduğunu deyən Ə.Mehdiyev vurğulayıb ki, müxtəlif vaxtlarda Azərbaycan Silahlı Qüvvələrində xidmət edən veteranlarımız ordumuzun xalqımız və dövlətimiz qarşısında vəzifə borcunu yerinə yetirməsi, onun təhlükəsizliyinin qorunması, əmin-amanlığının təmin olunması işinə bu gün öz töhfələrini verirlər. Veteranlarımız indi də bu işin öhdəsindən gəlmək əzmi ilə çalışır, qarşıda duran əsas vəzifənin - işğal altındakı ərazilərimizin azad olunması istiqamətində istər orduda, istərsə də cəmiyyətdə hərbi-vətənpərvərlik ruhunun artırılması işində fəal iştirak edirlər.

Naxçıvan Muxtar Respublikası Veteranlar Təşkilatının sədri Firudin Süleymanov, Şəki rayon veteranlar təşkilatının sədri Mustafa Əhmədov, Gəncə şəhər veteranlar təşkilatının sədri Yusif Məmmədov və digərləri hesabat dövründə görülən işlərdən danışıblar.

Çıxış edənlər, eləcə də Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin üzvü, professor Bəhram Zahidov, təşkilatın Nəzarət-Təftiş Komissiyasının sədr müavini Salman Babayev və başqaları Respublika Veteranlar Təşkilatının illik fəaliyyətini qənaətbəxş qiymətləndiriblər. Natiqlər yeniyetmə və gənclərimizin milli və hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində, veteran hərəkatının inkişafında, cəmiyyətimizin həyatında mühüm rol oynayan Respublika Veteranlar Təşkilatının uğurlu fəaliyyətini qeyd edib, qarşıda duran vəzifələrdən danışıblar. Plenumun iştirakçıları Respublika Veteranlar Təşkilatının hər zaman dövlətin yanında olduğunu, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək onu dəstəklədiklərini bildiriblər.

Daha sonra C.Xəlilov gündəlikdəki ikinci məsələ olan Respublika Veteranlar Təşkilatının 2019-cu il üçün tədbirlər planı barədə məlumat verib.

Plenumda müzakirəyə çıxarılan məsələlər, o cümlədən Respublika Veteranlar Təşkilatının tədbirlər planı, habelə qurumun hesabat dövründəki fəaliyyətinin yekunları səsə qoyularaq qənaətbəxş hesab edilib.

Azərbaycan.- 2018.- 12 dekabr.- S.6.